# Hər kitab bir dünyadır




## Tarixi fotolar kataloqu

***XIX əsrdə Azərbaycana səyahət etmiş tanınmış rus fotoqrafı Dmitri Yermakovun çəkdiyi fotoşəkillərdən ibarət kitab-albomu işıq üzü görüb.***

Heydər Əliyev Fondunun dəstəyi ilə ərsəyə gəlmiş “Odlar yurduna səyahət” adlı həmin kitabdakı materiallar 1880-ci illərin sonundan XX əsrin əvvəlinədək olan dövrü əhatə edir. Gürcüstan Milli Muzeyinin Yermakov Fondunda saxlanılan bu nadir fotoşəkillərin əksəriyyəti ilk dəfə dərc olunub.

Azərbaycan və ingilis dillərində tərtib olunmuş kitab-albom elmi redaktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədovdur. Təqdim olunan 260-dan çox foto tarixçilər, etnoqraflar, bədii və sənədli film çəkənlər üçün əvəzolunmaz materialdır.

Kataloqdakı maraqlı silsilələr etnoqrafik xarakter daşıması ilə diqqət çəkir.

## “Xocalı: Şahidlər danışır" kitabı 8 dildə

***Yazıçı-publisist, tarix üzrə fəlsəfə doktoru İradə Əlilinin "Xocalı: Şahidlər danışır" kitabı Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə 8 dildə (Azərbaycan, türk, ingilis, rus, italyan, ispan, alman və fransız) təkrar nəşr olunub.***




Azərbaycan həqiqətlərinin tanınması baxımından gərəkli vəsait olan kitaba professor Elmira Süleymanova “Ön söz” yazıb. Redaktoru İnsan Hüquqları üzrə Müvəkkil – Ombudsman Aparatının əməkdaşı Azadə Novruzova, tərçüməçilər ADU-nun bir qrup müəllimidir.

Kitabda Yuxarı Qarabağın Xocalı rayonu haqqında qısa ensiklopedik məlumatlar, eləcə də 26 fevral 1992-ci ildə orada baş vermiş faciənin şahidlərinin xatirələri yer alıb.

## Poeziyamızın “Ağsəs”i



***“Azərbaycan Kitab, Maarif və Poliqrafçılar” İctimai Birliyinin “Ədəbiyyatşünaslığa dəstək” layihəsi çərçivəsində nəşr edilmiş növbəti kitab tanınmış şair, “Ulduz” jurnalının baş redaktoru Qulu Ağsəsə həsr olunub.***

“Adı soyadını eşidən şair – Qulu Ağsəs” adlı kitabın müəllifi Bakı Slavyan Universitetinin dosenti, filoloq Kəmalə Umudovadır. Onun araşdırmalarında məqsəd şairin yaradıcılıq prinsiplərini, estetik görüşlərini, bədii dillə ifadə etdiyi aksioloji dəyərlər sistemini təhlil etmək, özünəməxsus şeir modelinin böyük ədəbiyyat üçün səciyyəvi olan ideya və məzmun strukturu ilə vəhdətini önə çəkməkdir.

Kitabın redaktoru Sevinc Nuruqızı, dizayneri Firuzə İbrahimova, korrektoru Günel Məmmədovadır. Üz qabığında isə rəssam Ədalət Həsənin “Qulu Ağsəsin portreti” əsərindən istifadə edilib. Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli və filologiya elmləri doktoru, professor Leyla İmaməliyeva vəsaitə rəy yazıblar.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti .- 2024.- 31 yanvar, № 20.- S.10.